**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FƏLSƏFƏ VƏ HÜQUQ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**ŞIRPUR VƏLI ABBAS OĞLU**

# CİNAYƏT MÜHAKİMƏ İCRAATINDA MÜDAFİƏÇİNİN PROSESSUAL STATUSU: AZƏRBAYCAN RESPUBLİKASI VƏ İRAN İSLAM RESPUBLİKASI QANUNVERİCİLİYİNİN MÜQAYİSƏLİ TƏHLİLİ ƏSASINDA

**İxtisas: 5612.01 – Cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası; əməliyyat-axtarış fəaliyyəti**

**Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı – 2015**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **İsaxan Veysəl oğlu Vəliyev**
hüquq üzrə elmlər doktoru,
professor

**Rəsmi opponentlər:** **Mithəd Seyidəhməd oğlu Qəfərov**
hüquq üzrə elmlər doktoru

**Nail İbad oğlu Abbasov**
hüquq üzrə fəlsəfə doktoru

**Aparıcı təşkilat:** **Azərbaycan Milli Aviasiya Akademiyası**

Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın müdafiəsi «18» sentyabr 2015-ci il tarixdə, saat 15:00-da Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutu nəzdindəki FD.01.103 saylı Dissertasiya Şurasının iclasında keçiriləcək.

**Ünvan:** AZ1143, Bakı ş., Hüseyn Cavid pr. 115, Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutu, 9-cu mərtəbə, konfrans zalı.

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat «   » ___________ 2015-ci il tarixdə göndərilmişdir.

**FD.01.103 Dissertasiya Şurasının**
**elmi katibi, h.ü.f.d., dos.** **X.Ə. Bayramzadə**

# I. İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat mövzusunun aktuallığı**. Müasir demokratikləşmə şəraitində milli hüquq sistemində islahatların aparılması və qanunvericilik bazasının mərhələli şəkildə təkmilləşdirilməsi zərurəti cinayət prosesinin təşkil edilməsində və müdafiəçinin statusunun müəyyən edilməsində, mövcud olan prinsip və yanaşmanın yenidən nəzərdən keçirməsini tələb edir ki, bu da təsadüfi deyildir. Belə ki, hər bir dövlət cinayət törətməkdə şübhəli, yaxud təqsirli bilinən hər kəsin hüquqlarının və qanuni maraqlarının müdafiəsi müdafiəçi funksiyalarını yerinə yetirən prosessual şəxsə – vəkilə həvalə edilir.

Müdafiəçinin hüquqi statusunun təhlili bütünlükdə ictimai münasibətlərin məcmusunun inkişaf səviyyəsini, insanların həyat fəaliyyətinin şərait və üsullarını, insan azadlıqlarının hədlərini, mümkün konfliktlərin həlli yollarını və sair davranış qaydalarını formalaşdıran dövlətin demokratik və hüquqi əsaslarının yetkinliyini səciyyələndirməyə imkan verir. Bu isə öz növbəsində, cinayət-mühakimə icraatının mövcud durumunun xarakterizə edilməsinə, onun hamı tərəfindən qəbul olunmuş beynəlxalq hüquq normalarına uyğun olub-olmamasının öyrənilməsinə, cinayət-prosessual hüququnun bu və ya digər norma və institutlarının işləkliyinin nə dərəcədə təmin olmasının müəyyən edilməsinə şərait yaradır.

Ümumbəşəri dəyərlərin, insan hüquq və azadlıqlarının təmin edilməsi məqsədinin qarşıya qoyulması peşəkar hüquqi yardıma ehtiyacı olan hər bir təqsirləndirilən şəxsin müdafiəsinin cinayət prosesi çərçivəsində həyata keçirilməsinin nəzəri və təcrübi əsaslarının tədqiq edilməsi, müdafiəçi funksiyasını yerinə yetirən vəkilə qanunla həvalə olunmuş hüquq və vəzifələrin yetərlilik dərəcəsinin elmi cəhətdən araşdırılması zərurətini şərtləndirir.

Dövlət quruluşundan, hakim dairənin ictimai-siyasi baxışlarından və ideologiyasından asılı olaraq ayrı-ayrı dövrlərdə vəkilə müxtəlif funksiyalar həvalə olunmuş və bu zaman müdafiə funksiyasının tələbləri nəzərdən qaçırılmış, onun fəaliyyətinin təqsirləndirilən şəxs üçün hansı nəticələrə səbəb ola biləcəyi nəzərə alınmamışdır. Sovetlər ittifaqının mövcud olduğu dövrdə vəkilin fəaliyyəti hakim partiyanın ideologiyasına tabe etdirilmiş, o, dövlət ittihamçısının tərəfdaşı, ədalət mühakiməsinin köməkçisi, təqsirləndirilən şəxsin nümayəndəsi, hətta həqiqət uğrunda mübarizə aparan şəxs kimi funksiyaları yerinə yetirən prosessual şəxs kimi təqdim olunmuşdur.

Mövcud qanunvericilik normalarının və tarixi hadisələrin təhlili göstərir ki, 70 illik bir zaman kəsiyində ziddiyyətli və mürəkkəb inkişaf mərhələsi keçmiş və SSRİ-nin süqutundan sonra müstəqillik əldə etmiş Azərbaycan Respublikası özünün milli qanunvericiliyini formalaşdırmış, hüquqi islahatlar keçirmiş, həyatın bütün sahələrində olduğu kimi hüquqtətbiqetmə fəaliyyətinin demokratikləşməsinə nail olmuşdur. Qanunvericilik fəaliyyəti, hüquqi islahatların keçirilməsi, demokratikləşmə və hüquqi dövlət quruculuğu vəkillik fəaliyyətindən də yan keçməmişdir. Faktiki olaraq yeni vəkillik qurumu formalaşdırılmış, müvafiq qanunvericilik aktları qəbul olunmuş və onun fəaliyyəti yenidən təşkil olunmuşdur.

Azərbaycan Respublikasının yeni Cinayət-Prosessual Məcəlləsinin qəbul edilməsi də qanunvericiliyin təkmilləşdirilməsi, hüquqi islahatların keçirilməsi və vəkillik institutunun qarşısında duran məsələlərin həlli istiqamətində görülən ən əhəmiyyətli tədbirlərdən biridir.

İranın da vəkillik institutu oxşar tarixi yol qət etmiş, ölkədə mövcud olmuş ictimai-siyasi münasibətlərlə bağlı olan gərgin mübarizə şəraitində yaranmış və mürəkkəb inkişaf yolu keçmiş və İran İslam İnqilabının qələbəsindən sonra daha da təkmilləşmişdir.

Lakin bütün bunlarla yanaşı qeyd etməliyik ki, hər iki ölkənin vəkillik institutu hələ də inkişaf etmiş dünya dövlətlərində mövcud olan vəkillik institutları səviyyəsinə çatmamışdır. Odur ki, cinayət mühakimə icraatında müdafiəçinin prosessual statusu (hüquqi vəziyyəti) problemləri ilə bağlı olan elmi-tədqiqat mövzusunun işlənilməsinin aktuallığı bu gün şübhəsizdir. Belə ki, bu təkcə həmin proses iştirakçısının fəaliyyətinin lazımi səviyyədə təmin olunmasına deyil, eyni zamanda, bütünlükdə insan hüquqlarının, o cümlədən də təqsirləndirilən şəxsin müdafiə hüququnun təmin edilməsi ilə bağlı problemlərin həllinə xidmət edir.

Cinayət mühakimə icraatında müdafiəçinin prosessual statusu məsələlərinin hər iki ölkənin qanunvericilik normaları əsasında müqayisəli olaraq təhlil edilməsi isə müvafiq sahədə mövcud olan problemlərin müəyyən edilməsi və onların aradan qaldırılması üçün əhəmiyyətlidir ki, bu da öz növbəsində aparılmış elmi tədqiqatın aktuallığını bir daha vurğulayır.

**Problemin araşdırılma dərəcəsi.** Hər şeydən əvvəl qeyd etməliyik ki, cinayət mühakimə icraatında müdafiəçinin prosessual statusu məsələləri nə Azərbaycan Respublikasının, nə də İran İslam Respublikasının alimləri tərəfindən ayrıca elmi-tədqiqat mövzusu kimi işlənilməmişdir. Lakin vəkillik fəaliyyəti ilə bağlı olan bir çox məsələlər müxtəlif vaxtlarda ayrı-ayrı Azərbaycan və İran müəllifləri (F.Abbasova: «Çəkişmə prinsipi: inkişaf tarixi, müasir problemləri və onların həlli yolları», A.Atakişi:

«Cinayət işinin başlanması zamanı çəkişmənin mümkünlüyü», E.Rəhimov: «Birinci instansiya məhkəməsində müdafiəçinin iştirakının bəzi xüsusiyyətləri», İ.V. Vəliyev və F.Y. Xəlilovun bir sıra məqalələri, o cümlədən, B.Əhməd: «Pulsuz vəkillik haqqında xülasə», Ə.Məhərrəm: «Cinayət prosesi vəkilliyi», B.Seyyid Əhməd, və R.Əhməd: «Vəkillik qanun və qaydalarının təkmil məcmuəsi» və s.) tərəfindən tədqiq edilmişdir.

**Tədqiqat işinin məqsəd və vəzifələri.** Tədqiqat işinin **məqsədi** Azərbaycan Respublikasının və İran İslam Respublikasının müvafiq qanunvericilik normaları əsasında müdafiəçinin prosessual statusunun öyrənilməsi, onun tərkib elementlərinin (hüquq və vəzifələrin) qarşılıqlı olaraq təhlil edilməsi və yekun nəticə olaraq hər iki ölkənin cinayət-prosessual qanunvericiliyinin təkmilləşdirilməsidir.

Bu məqsədə nail olmaq üçün tədqiqat işi qarşısında aşağıdakı **vəzifələr** qoyulmuşdur:

– Azərbaycanda və İranda vəkilliyin yaranmasının və inkişaf mərhələlərinin öyrənilməsi;

– müdafiə anlayışının təhlili və müəyyən edilməsi;

– müdafiəçiyə malik olmaq hüququnun müdafiə hüququnun tərkib hissəsi kimi tədqiq edilməsi;

– təqsirləndirilən şəxsin müdafiə hüququnun təmin edilməsinə dair məhkəmə praktikasının öyrənilməsi;

– müdafiəçinin prosessual statusunun tərkib elementləri olan hüquq və vəzifələrin qarşılıqlı olaraq tədqiq edilməsi;

– vəkil etikası anlayışının və vəkilə qarşı irəli sürülən etik tələblərin tədqiq edilməsi;

– elmi-tədqiqat işi nəticəsində müəyyən edilmiş problemlərin aradan qaldırılması və qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə konkret təkliflərin irəli sürülməsi.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti təqsirləndirilən şəxsin müdafiə hüququnun tərkib hissəsi kimi müdafiəçiyə malik olmaq hüququnun həyata keçirilməsi zamanı yaranan ictimai münasibətlərdir. Tədqiqatın predmeti cinayət mühakimə icraatında müdafiəçinin prosessual statusunu (hüquqi vəziyyətini) müəyyən edən hüquq münasibətləridir.

**Tədqiqatın metodoloji əsası və metodikası.** İşin metodoloji əsasını nəzəri biliklərin, konsepsiyaların qurulmasının prinsip və üsullarının elmi cəhətdən işlənilməsinə müvafiq olaraq, cinayət-prosessual hüquq elminə nisbətdə təhlil edilmiş ümumi hüquq nəzəriyyəsinin fundamental müddəaları təşkil edir. Metodoloji məsələlərin işlənib hazırlanması

prosesində cinayət prosesi, kriminalistika, psixologiya, sosiologiya, pedaqogika və digər elm sahələrinin son nailiyyətlərindən istifadə edilmişdir. Tədqiqat zamanı analiz, sintez, sistemli yanaşma, modelləşdirmə, təcrübənin ümumiləşdirilməsi, doktrinal şərhetmə, sosioloji sorğu və elmi idrakın digər metodlarından istifadə edilmişdir.

**Tədqiqatın empirik əsasları** Azərbaycan Respublikasının və İran İslam Respublikasının məhkəmə təcrübəsinin (müxtəlif məhkəmə instansiyalarında baxılmış 100-dən çox cinayət işi üzrə), Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarlarının, Azərbaycan Respublikası Ali Məhkəməsinin və İran İslam Respublikası Ali Məhkəmə orqanının qərarlarının, insan hüquqları üzrə Avropa Məhkəməsinin təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsindən ibarət olmuşdur.

**Tədqiqatın nəzəri əsasları.** Dissertasiya mövzusunun tədqiqi prosesində idarəetmə elmi, məntiq, sosiologiya, sosial psixologiya, həmçinin cinayət prosesi, cinayət hüququ, ümumi hüquq nəzəriyyəsi, kriminalistika, əməliyyat-axtarış fəaliyyəti sahələrinə dair fundamental tədqiqatlar əsas götürülmüş, Azərbaycan Respublikasının tanınmış hüquqşünas alimləri C.H.Mövsümovun, F.Y.Səməndərovun, M.Ə.Cəfərquliyevin, M. Abdullayevin, İ.V.Vəliyevin, F.M. Abbasovanın, X.D.Ələkbərovun, M.F.Məlikovanın, M.D.Səlimov, B.S.Zahidovun, İ.S.Abbasovanin, H.S.Qurbanovun, E.M.Əfəndiyevin, F.Y. Xəlilovun və başqalarının, İran İslam Respublikasının tanınmış hüquqşünas alimləri Bağır Seyid Əhməd Məsudun, Kaşani Lahludun, Kaşani Seyid Məhəmmədin, Katibi Hüseynqulunun, Ziraət Abbasın, Aşuri, Məhəmmədin, Axundi Mahmudun, Təvana Əlinin, Təfzili Doktor Əbülqasimin, Baxtər Əhmədin və başqalarının, Rusiyanın görkəmli alimləri E.V.Vaskovskinin, İ.Y.Foynitskinin, M.Y.Barşevskinin, A.D.Boykovun, V.P.Bojevin, P.A.Lupinskayanın, Z.Z.Zinatulinin, Z.V.Makarovanin, İ.D.Perlovun, İ.L.Petruxinin, Q.M.Reznikin, V.M.Savitskinin, M.C.Stroqoviçin, A.L.Sıpkinin, M.A.Çelsovun və digərlərinin elmi əsərləri əsas nəzəri mənbə rolunu oynamışdır.

**Tədqiqatın normativ əsasları.** Azərbaycan Respublikasının Konstitusiyasından, Cinayət və Cinayət-Prosessual Məcəllələrindən, Konstitusiya Məhkəməsi Plenumunun «AR CPM-in 43.1.1 və 314.2-ci maddələrində nəzərdə tutulmuş «dövlət ittihamçısı və xüsusi ittihamçı cinayət təqibindən imtina etdikdə» müddəasının şərh edilməsinə dair» 15 fevral 2008-ci il tarixli, «AR CPM-in 92.12-ci maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair» 20 may 2011-ci il tarixli, «AR CPM-in 26 və 96-cı maddələrinin şərh edilməsinə dair» 15 iyul 2011-ci il tarıxli, «AR CPM-in 158.3-cü maddəsinin bəzi müddəalarının, 158.4 və 290.3-cü

maddələrinin şərh edilməsinə dair» 10 oktyabr 2011-ci il tarixli Qərarı, «AR CPM-in 293.1-ci maddəsinin və 297.0.4-cü maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair» 12 yanvar 2011-ci il tarixli Qərarlarından, o cümlədən, İran İslam Respublikasının Konstitusiyasından, Cinayət-Prosessual Məcəlləsindən, «Vəkillik haqqında» qanundan, Mülki qanundan, «Ümumi və inqilab məhkəmələri haqqında» qanundan, "Həbsxanalar Təşkilatı İcraiyyə Əsasnaməsi"ndən və digər qanunvericilik aktlarındanibarətdir.

**Tədqiqat işinin elmi yeniliyi** dissertasiya mövzusunun tədqiq edilməsi zamanı əldə edilmiş aşağıdakı nəticələrin yeniliyi ilə izah olunur:

– müdafiəçinin prosessual statusu məsələləri Azərbaycan Respublikasının və İran İslam Respublikasının qanunvericilik normaları əsasında geniş tədqiq edilmiş;

– müdafiəçinin prosessual statusunun tərkib elementlərini təşkil edən hüquq və vəzifələr ilk dəfə olaraq müqayisəli təhlil edilmiş;

– Azərbaycan Respublikasında və İran İslam Respublikasında qanunvericiliyin təkmilləşdirilməsi üzrə təkliflər irəli sürülmüşdür.

**Müdafiəyə təqdim olunan müddəalar.**

1. Azərbaycanın vəkillik qurumu 70 illik bir zaman kəsiyində ölkədə mövcud olmuş ictimai-siyasi münasibətlərə uyğun olaraq ziddiyyətli və mürəkkəb inkişaf yolu keçmiş, SSRİ-nin süqutundan sonra əldə olunmuş müstəqillik və demokratikləşmə şəraitində keçirilən hüquqi islahatların təsiri nəticəsində təkmilləşərək qanun çərçivəsində özünü idarəetmə prinsipləri əsasında idarə olunan müstəqil bir qeyri-dövlət təşkilatına çevrilmişdir.

2. Azərbaycanda olduğu kimi İranda da vəkillər birliyi ölkədə mövcud olmuş ictimai-siyasi münasibətlərlə bağlı olan gərgin mübarizə şəraitində yaranmış, ziddiyyətli və mürəkkəb inkişaf yolu keçmiş, tədricən təkmilləşmiş, nəhayət azad seçki, özünü maliyyələşdirmə və idarəetmə prinsiplərinə əsaslanan müstəqil assosiasiya kimi formalaşmışdır.

3. Cinayət mühakimə icraatında müdafiəçinin prosessual statusu məsələlərinin Azərbaycan Respublikasının və İran İslam Respublikasının qanunvericilik normaları əsasında müqayisəli olaraq təhlil edilməsi hər iki ölkənin qanunverici orqanı və hüquq ictimaiyyəti üçün əhəmiyyətlidir. Belə ki, bu, müvafiq sahədə mövcud olan problemlərin müəyyən edilməsinə və onların aradan qaldırılması üçün zəruri tədbirlərin həyata keçirilməsinə xidmət edir.

4. Nə Azərbaycan Respublikasının, nə də İran İslam Respublikasının cinayət-prosessual qanunlarında «müdafiəçi» sözünün anlayışı müəyyən edil-

məmişdir. Lakin müvafiq qanun normalarının ümumi təhlili belə deməyə əsas verir ki, müdafiəçi cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətməsi istinad edilən şəxsə qarşı irəli sürülmüş ittihamın təkzibi və ya yüngülləşdirilməsi, onun hüquq və azadlıqlarının müdafiəsi, habelə cinayət təqibinə qanunsuz məruz qalmış şəxsin pozulmuş hüquq və azadlıqlarının bərpası məqsədi ilə həyata keçirilən prosessual fəaliyyəti icra edən şəxsdir.

5. Müdafiəçi cinayət-mühakimə icraatında təqsirləndirilən (şübhəli) şəxsin, eləcə də formal prosessual statusundan asılı olmayaraq cinayət prosesinə cəlb olunmuş digər şəxslərin hüquqlarının və qanuni mənafelərinin təmsilçisidir və cinayət-prosessual qanunvericiliklə ona verilmiş səlahiyyətlərə görə xüsusi hüquqi statusa malikdir. Konkret iş üzrə müdafiəçinin səlahiyyətli olması bilavasitə təqsirləndirilən şəxsin iradəsindən asılıdır. Bu səlahiyyətlər müdafiə olunan şəxsin iradəsinin törəməsi olmaqla həmin şəxsin maraqlarının təmsil olunmasına əsaslanır, onun hüquqlarının və qanuni maraqlarının müdafiə olunması məqsədinə tabe olur.

6. Müdafiə etdiyi şəxsdən başqa bütün digər proses iştirakçıları və məhkəmə ilə münasibətdə, eləcə də sübutların qiymətləndirilməsində müdafiəçi tam müstəqildir. Lakin müdafiə etdiyi şəxslə münasibətdə onun müstəqilliyi müəyyən dərəcədə nisbi xarakter daşıyır. Belə ki, o, təqsirləndirilən (şübhəli) şəxsin törədilmiş cinayət əməlində iştirakı və digər əlaqəli məsələlərlə bağlı müdafiə tərəfinin razılaşdırılmış ümumi mövqeyindən kənara çıxaraq müstəqil mövqe nümayiş etdirmək hüququna malik deyil. Göstərilənlər belə deməyə əsas verir ki, təqsirləndirilən (şübhəli) şəxsin müdafiəçisi cinayət prosesinin qismən müstəqil iştirakçısıdır. Təqsirləndirilən (şübhəli) şəxslə münasibətdə onun müstəqilliyi müəyyən qədər məhdudlaşır. Müdafiə məsələləri üzrə öz mövqeyini o, təqsirləndirilən (şübhəli) şəxslə razılaşdırmalı olur. Sonuncunun razılığı olmadan müəyyən hərəkətləri edə bilmir. Müdafiəçi müəyyən mənada təqsirləndirilən (şübhəli) şəxsin nümayəndəsi funksiyasını yerinə yetirir. Belə ki, o, təqsirləndirilən (şübhəli) şəxsin iradəsinə uyğun olaraq cinayət prosesinə buraxılır, özünün deyil, məhz onun maraqlarını müdafiə edir. Təqsirləndirilən (şübhəli) şəxs müdafiəçidən imtina etmək, yəni onu prosesdən kənarlaşdırmaq hüququnu bütün proses boyu özündə saxlayır. Digər tərəfdən, müdafiəçinin müstəqilliyi ancaq təqsirləndirilən (şübhəli) şəxs üçün əlverişli nəticənin əldə olunması istiqamətdə fəaliyyətlə, həmçinin müdafiə etdiyi şəxsin ona etibar etdiyi sirri yaymamaq vəzifəsi ilə məhdudlaşır.

7. Müdafiəçisinin cinayət-prosessual qanunvericilikdə nəzərdə tutulan hüquq və vəzifələri onun prosessual statusunun tərkib elementləridir. Təqsirləndirilən (şübhəli) şəxsin müdafiəçisinin prosessual statusunun dəqiq tənzimlənməsinin əsas məqsədi və əhəmiyyəti ondan ibarətdir ki, müdafiəçinin hüquq və vəzifələrinin həcmi ona həvalə edilmiş tapşırıqların uğurla həyata keçirilməsinə kifayət etsin və eyni zamanda ibtidai araşdırmanın və işin məhkəmə baxışının aparılmasına maneə yaratmasın. Göstərilənlərlə bağlı qeyd etməyi lazım bilirik ki, müdafiəçinin prosessual statusunun tərkib elementlərini təşkil edən hüquq və vəzifələr «Vəkillər və vəkillik fəaliyyəti haqqında» Azərbaycan Respublikası qanununun və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin müvafiq maddələri ilə dəqiq müəyyən olunur. Lakin İran İslam Respublikasının qanunvericiliyində belə dəqiqlik mövcud deyildir. Belə ki, vəkillərin hüquq və vəzifələrini müəyyən edən normalar «Vəkillik haqqında» qanundan və Cinayət-Prosessual Məcəllədən başqa Mülki qanunda, «Ümumi və inqilab məhkəmələri haqqında» qanunda, "Həbsxanalar Təşkilatı İcraiyyə Əsasnaməsində və digər qanunvericilik aktlarında pərakəndə olaraq əks olunmuşdur.

Eyni zamanda qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi də qüsursuz deyildir. Həmin Məcəllənin 92-ci maddəsinin mətnində bir qədər təkrarçılığa yol verilmiş, müdafiəçiyə yox, başqa proses iştirakçılarına (şübhəli və təqsirləndirilən şəxsə, təhqiqatçıya, müstəntiqə, prokurora) aid olan məsələlər lüzumsuz olaraq mətnə daxil edilmişdir ki, bu da öz növbəsində maddənin əlavə yüklənməsinə səbəb olmaqla, onun ayrı-ayrı müddəalarını çətin başa düşülən etmişdir.

Göstərilən qüsurların aradan qaldırılması üçün hər iki ölkənin müvafiq qanunvericilik aktlarına zəruri dəyişikliklər və əlavələr edilməsini məqsədəuyğun hesab edirik. Bununla bağlı olan konkret təkliflər dissertasiya işinin nəticəsində öz əks olunmuşdur.

8. İran İslam Respublikası Cinayət-Prosessual Məcəlləsinin 128-ci maddəsi ilə müəyyən olunan məhdudiyyətlər təqsirləndirilən şəxsin müdafiə hüququnun tam şəkildə həyata keçirilməsinə mane olur. Həmin maddə ilə nəzərdə tutulan məhdudiyyətlər İran İslam Respublikası Konstitusiyasının 35-ci maddəsinə, «Vətəndaşların hüquqlarının qorunması və şəxsi azadlıqlarına ehtiram edilməsi haqqında» qanuna, «Ümumi və inqilab məhkəmələri haqqında» qanunun 185 və 187-ci maddələrinə, IV inkişaf qanununun 130-cu maddəsinin «z» bəndinə, Siyasi və mülki hüquq haqqında beynəlxalq konvensiyanın ikinci hissəsinin 14-cü maddəsinin 3-

cü bəndinə və Amerika konvensiyasının 6-cı maddəsinin 3-cü hissəsinin «b» bəndinə ziddir.

Bir-neçə il əvvəl Əmir Ərcümənd və Doktor Ərdəsir də analoji mövqedən çıxış etmişlər. Lakin bu günədək onların mövqeyi qanunverici orqan tərəfindən nəzərə alınmamış, göstərilən ziddiyyət aradan qaldırılmamışdır. Odur ki, problemi yenidən gündəmə gətirməyi zəruri hesab edirik.

İbtidai araşdırmanın gizli saxlanılması məqsədilə hakimin müdafiəçinin ibtidai istintaqda iştirakına maneə törətmək imkanına malik olması da (İran İslam Respublikası Cinayət-Prosessual Məcəlləsinin 128-ci maddəsinin əlavəsi) İran İslam Respublikasının Konstitusiyasının 35-ci maddəsilə müəyyən olunmuş müdafiə hüququna zidd hərəkət kimi qiymətləndirilməlidir. Belə ki, Konstitusiyada müdafiə hüququnun məhdudlaşdırılması nəzərdə tutulmur. Digər tərəfdən, dolayısı ilə olsa da bu müdafiəçinin şəxsiyyətinin təqsirləndirilən şəxsin şəxsiyyəti ilə eyniləşdirilməsi deməkdir. Ehtimal olunur ki, müdafiəçinin ibtidai araşdırmada iştirakı istintaq sirrinin yayılmasına səbəb ola bilər.

Hesab edirik ki, İran İslam Respublikası Konstitusiyasının 35-ci maddəsi ilə müəyyən olunmuş müdafiə hüququnun real olaraq təmin olunması məqsədilə İran İslam Respublikası Cinayət-Prosessual Məcəlləsinin 128-ci maddəsi ilə nəzərdə tutulan məhdudiyyətlər aradan qaldırılmalı, cinayət təqibi ilə bağlı olaraq şəxsin ilkin dindirilməsi anından başlayaraq ona müdafiəçinin xidmətindən istifadə etmək hüququnun verilməsi nəzərdə tutulmalıdır.

9. Müdafiəçi prosesə buraxıldığı andan başlayaraq müəyyən sənədlərlə (tutulma haqqında protokol, qətimkan tədbirinin seçilməsi barədə qərar, şübhəli (təqsirləndirilən) şəxsin iştirakı ilə keçirilmiş istintaq hərəkətlərinin protokolları, şübhəli (təqsirləndirilən) şəxsə təqdim olunan, yaxud təqdim edilməli olan digər sənədlər) tanış olmaq hüququ əldə edir. Həmin sənədləri şərti olaraq iki qrupa bölmək olar: müdafiəçinin işə buraxılması anınadək işdə olan sənədlər və müdafiəçi işə buraxıldıqdan sonra ortaya çıxa bilən sənədlər. Birinci qrupa daxil olan prosessual sənədlər sırasına tutulma haqqında protokol, həbs qətimkan tədbirinin seçilməsi barədə qərar aiddir. İkinci qrupa isə aşağıdakı prosessual sənədlər daxildir: 1) şübhəli (təqsirləndirilən) şəxsin, yaxud müdafiəçinin özünün iştirakı ilə aparılmış istintaq hərəkətlərinin protokolları; 2) şübhəli (təqsirləndirilən) şəxsə təqdim olunan, yaxud təqdim edilməli olan sənədlər; 3) həbs qətimkan tədbirinin seçilməsinin, yaxud tutulmanın qanuniliyi və əsaslılığını, təsdiqi kimi məhkəməyə göndərilən sənədlər.

**Tədqiqatın nəticələrinin nəzəri və təcrübi əhəmiyyəti.** Tədqiqatın nəticələri müdafiəçinin prosessual statusunu, cinayət mühakimə icraatının iştirakçısı kimi onun qanunvericiliyə və etik normalara əsaslanan fəaliyyətinin hədlərini nəzəri cəhətdən əsaslandırmağa imkan verir. Həmin nəticələr və irəli sürülmüş təkliflər müdafiəçinin statusunun və onun cinayət prosesindəki rolunun yenidən işlənilib müəyyən edilməsi, cinayət-prosessual qanunla verilmiş hüquqların həmin proses iştirakçısı tərəfindən həyata keçirilməsinə təminatın gücləndirilməsi, cinayət-prosessual qanunu anlayışlarının dərk edilməsinə yeni yanaşma mexanizminin işlənilib müəyyən edilməsi üçün istifadə oluna bilər. Eyni zamanda tədqiqat işinin nəticələri müvafiq qanunvericilik aktlarının təkmilləşdirilməsi, tədris prosesində istifadə olunması, elmi-metodiki vəsaitin hazırlanması, eləcə də vəkillərin ixtisasının artırılması prosesində istifadə olunması üçün əhəmiyyətlidir.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiyanın əsas müddəaları və nəticələri Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunları Baş İdarəsi və AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun birgə təşkilatçılığı ilə keçirilmiş «Hərbi xidmət və cinayətkarlıqla mübarizə problemləri» mövzusunda ümumrespublika konfransında, Ulu öndər H.Əliyevin ad gününə həsr olunmuş «Hüquq elminin və təhsilinin müasir problemləri və onların həlli yolları» mövzusunda beynəlxalq konfransda, digər nəzəri-praktiki seminar və məşğələlərdə edilmiş çıxışlarda, İran İslam Respublikası «Peyame Nur» Universitetinin tələbələri üçün oxunmuş mühazirələrdə, müəllifin dərc olunmuş elmi məqalələrdə şərh olunmuşdur.

**Dissertasiyanın strukturu.** Dissertasiya girişdən, yeddi yarımfəsili əhatə edən üç fəsildən, nəticədən, istifadə olunmuş ədəbiyyat siyahısından və əlavələrdən ibarətdir.

## II. İŞİN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılır, problemin araşdırılma dərəcəsi, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, metodoloji, empirik və nəzəri əsasları şərh olunur, tədqiqat işinin elmi yeniliyi və müdafiəyə təqdim olunan müddəalar nəzərə çatdırılır, tədqiqatın nəticələrinin nəzəri və təcrübi əhəmiyyəti göstərilir, dissertasiyanın strukturu barədə məlumat verilir.

Dissertasiya işinin «***Azərbaycanda və İranda vəkillik və müdafiə hüququ***» adlanan birinci fəslinin «***Azərbaycanda vəkilliyin yaranması və***

***inkişaf mərhələləri*»** adlanan birinci yarımfəslində 1920-ci ildən hazırkı vaxtadək bir dövrü əhatə edən zaman kəsiyində Azərbaycanda vəkillik institutunun təşəkkül tapmasının tarixi mərhələləri təhlil edilmiş və belə nəticə çıxarılmışdır ki, Azərbaycanın vəkillik qurumu 70 illik bir zaman kəsiyində ölkədə mövcud olmuş ictimai-siyasi münasibətlərə uyğun olaraq ziddiyyətli və mürəkkəb inkişaf mərhələsi keçmiş, SSRİ-nin süqutundan sonra əldə olunmuş müstəqillik və demokratikləşmə şəraitində keçirilən hüquqi islahatların təsiri nəticəsində təkmilləşərək qanun çərçivəsində özünü idarəetmə prinsipləri əsasında idarə olunan müstəqil bir qeyri-dövlət təşkilatına çevrilmişdir.

Həmin fəslin «***İranda vəkilliyin yaranması və inkişaf mərhələləri***» adlanan ikinci yarımfəslində İranda vəkillik institutunun yaranması və inkişaf mərhələləri tarixi faktlar əsasında təhlil edilir və yekun nəticə kimi müəyyən edilir ki, Azərbaycanın vəkillər təşkilatı olduğu kimi İranın da vəkillər təşkilatı ölkədə mövcud olmuş ictimai-siyasi münasibətlərlə bağlı olan gərgin mübarizə şəraitində yaranmış, mürəkkəb inkişaf yolu keçmiş, tədricən təkmilləşmiş, nəhayət azad seçki, özünü maliyyələşdirmə və idarəetmə prinsiplərinə əsaslanan müstəqil assosiasiya kimi formalaşmışdır.

Həmin fəslin «***Azərbaycan Respublikası və İran İslam Respublikası qanunvericiliyində müdafiə hüququnun təmin edilməsi məsələləri***» adlanan üçüncü yarımfəslində hər şeydən əvvəl bir sıra tanınmış nəzəriyyəçilərin (İ.Y.Foynitski, M.S.Stroqoviç, Z.Z.Zinatullin, T.Z.Zinatullin və s.) fikirlərinə, Azərbaycan, İran, Rusiya, Qazaxstan və digər region ölkələrinin qanunvericiliyinə istinad etməklə «müdafiə» anlayışı şərh edilir və belə nəticəyə gəlinir ki, İran İslam Respublikası Konstitusiyasında müdafiə hüququnun nəzərdə tutulmasına baxmayaraq, İran İslam Respublikası Cinayət-Prosessual Məcəlləsinin 128-ci maddəsi ilə müəyyən məhdudiyyətlərin qoyulması təqsirləndirilən şəxsin müdafiə hüququnun tam şəkildə həyata keçirilməsinə mane olur. Odur ki, İran İslam Respublikası Konstitusiyası ilə müəyyən olunmuş müdafiə hüququnun real olaraq təmin olunması məqsədilə İran İslam Respublikası Cinayət-Prosessual Məcəlləsinin 128-ci maddəsi ilə nəzərdə tutulan məhdudiyyətlər aradan qaldırılmalı, cinayət təqibi ilə bağlı olaraq şəxsin ilkin dindirilməsi anından başlayaraq müdafiə hüququ təmin olunmalı və cinayət-prosessual qanununda həmin şəxsə müdafiəçinin xidmətindən istifadə etmək hüququnun verilməsi nəzərdə tutulmalıdır.

Dissertasiya işinin «***Müdafiəçinin prosessual statusu və fəaliyyətinin hüquqi əsasları***» adlanan ikinci fəslinin «***Müdafiəçinin prosessual statusunun əsasları***» adlanan birinci yarımfəslində «status», «hüquqi status»,

«prosessual status», «vəkil statusu» və sair bu kimi əlaqəli terminlər anlayışı verilir, Azərbaycan Respublikasının və İran İslam Respublikasının qanunvericiliyinə əsasən vəkil statusunun əldə edilməsi, cinayət prosesində vəkilin (müdafiəçinin) kimliyi, onun təyinatı və digər əlaqəli problemlər şərh edilir, göstərilənlər əsasında belə nəticəyə gəlinir ki, təqsirləndirilən (şübhəli) şəxsin müdafiəçisi cinayət prosesinin qismən müstəqil iştirakçısıdır. Belə ki, təqsirləndirilən (şübhəli) şəxslə münasibətdə onun müstəqilliyi müəyyən qədər məhdudlaşır. Müdafiə məsələləri üzrə öz mövqeyini o, təqsirləndirilən (şübhəli) şəxslə razılaşdırmalı olur. Sonuncunun razılığı olmadan müəyyən hərəkətləri edə bilmir. Müdafiəçi müəyyən mənada təqsirləndirilən (şübhəli) şəxsin nümayəndəsi funksiyasını yerinə yetirir. Belə ki, o, təqsirləndirilən (şübhəli) şəxsin iradəsinə uyğun olaraq cinayət prosesinə buraxılır, özünün deyil, məhz onun maraqlarını müdafiə edir. Təqsirləndirilən (şübhəli) şəxs müdafiəçidən imtina etmək, yəni onu prosesdən kənarlaşdırmaq hüququnu bütün proses boyu özündə saxlayır. Digər tərəfdən, müdafiəçinin müstəqilliyi ancaq təqsirləndirilən (şübhəli) şəxs üçün əlverişli nəticənin əldə olunması istiqamətdə fəaliyyət göstərmək, həmçinin müdafiə olunanın ona etibar etdiyi sirri yaymamaq vəzifəsi ilə məhdudlaşır.

Həmin fəslin «***Cinayət mühakimə icraatında müdafiəçinin hüquq və vəzifələri***» adlanan ikinci yarımfəslində müdafiəçinin prosessual statusunu təşkil edən, yəni Azərbaycan Respublikasının və İran İslam Respublikasının qanunvericiliyi ilə müdafiəçiyə şamil edilən hüquq və vəzifələr qarşılıqlı olaraq təhlil edilir və belə nəticə çıxarılır ki, istər Azərbaycan Respublikasının, istərsə də İran İslam Respublikasının qanunvericiliyində vəkilin hüquq və vəzifələri müvafiq ölkənin qanunverici orqanının lazım bildiyi həcmdə nəzərdə tutulmuşdur. Lakin hesab edilir ki, Azərbaycan Respublikasının qanunvericiliyində bu məsələ daha dolğun həll olunmuşdur. Bununla bərabər, hər iki ölkənin müvafiq qanunvericiliyində aradan qaldırılması zəruri olan qüsurlar və boşluqlar mövcuddur. Elmi-tədqiqat işində onların aradan qaldırılması üçün irəli sürülən konkret təkliflər göstərilir.

Dissertasiya işinin «***Müdafiəçinin fəaliyyətinin etik əsasları***» adlanan üçüncü fəslinin «***Vəkil etikasının anlayışı və sosial əhəmiyyəti***» adlanan birinci yarımfəsli cinayət mühakimə icraatında müdafiəçinin prosessual fəaliyyətini tənzimləyən etik normaların təhlilinə həsr olunmuş və müəyyən edilmişdir ki, vəkil etikası xidməti fəaliyyətdə və gündəlik həyatda vəkilin malik olmalı olduğu mənəvi keyfiyyətləri öyrənən, vəkilin iştirakını tələb edən bu və ya digər prosessual şəraitdə zəruri davranış qaydalarının işlənilib hazırlanmasına kömək edən elmdir. Bu isə öz növbəsində göstərir

ki, vəkil etikası vəkilin prosessual və qeyri-prosessual fəaliyyətinin mənəvi əsaslarını özündə əks etdirir.

Həmin fəslin «***Vəkilin digər proses iştirakçıları ilə qarşılıqlı münasibətlərinin etik əsasları***» adlanan ikinci yarımfəslində proses iştirakçıları ilə qarşılıqlı münasibətlərin gedişində vəkildən tələb olunan mənəvi-psixoloji keyfiyyətlərdən bəhs olunur. Son nəticə olaraq qeyd olunur ki, müəyyən olunmuş etik qaydalara riayət olunması vəkilin öz vəzifə borclarını lazımınca yerinə yetirməsi və müdafiə etdiyi şəxslər (şübhəli və təqsirləndirilən şəxslər, məhkum olunmuş) qarşısında olan öhdəliklərini peşəkar səviyyədə həyata keçirməsi üçün son dərəcə zəruridir.

Elmi-tədqiqat işinin nəticələri belə deməyə əsas verir ki, Azərbaycanda və İranda XX əsrin əvvəllərində yaranmış vəkillik qurumları ötən müddət ərzində ölkədə mövcud olmuş ictimai-siyasi münasibətlərin təsiri altında ziddiyyətli və mürəkkəb inkişaf yolu keçmiş, tədricən təkmilləşmiş, nəhayət azad seçki, özünü maliyyələşdirmə və idarəetmə prinsipləri əsasındı fəaliyyət göstərən müstəqil qeyri-hökumət təşkilatı kimi formalaşmışdır.

Cinayət mühakimə icraatında müdafiəçinin prosessual statusu məsələlərinin Azərbaycan Respublikasının və İran İslam Respublikasının qanunvericilik normaları əsasında müqayisəli olaraq təhlil edilməsi hər iki ölkənin vəkillik qurumlarının və vəkillərinin fəaliyyətini tənzimləyən qanunvericilik aktlarında mövcud olan qüsurların və boşluqların aşkar edilməsinə və onların aradan qaldırılması üçün müvafiq təkliflərin irəli sürülməsinə imkan verir.

Göstərilənlərlə əsaslanaraq belə nəticəyə gəlirik ki, müdafiəçinin prosessual statusunun tərkib elementlərini təşkil edən hüquq və vəzifələr «Vəkillər və vəkillik fəaliyyəti haqqında» Azərbaycan Respublikası qanununun və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin müvafiq maddələri ilə dəqiq müəyyən olunsa da (*müəyyən qüsurların olmasına baxmayaraq*) İran İslam Respublikasının Cinayət-Prosessual Məcəlləsində belə dəqiqlik mövcud deyil. Belə ki, cinayət prosesində iştirak edən vəkilin hüquq və vəzifələrini müəyyən edən normalar ölkənin müxtəlif qanunvericilik aktlarında, o cümlədən də «Vəkillik haqqında» qanunda, Cinayət-Prosessual Məcəlləsində, Mülki qanunda, «Ümumi və inqilab məhkəmələri haqqında» qanunda, «Həbsxanalar Təşkilatı İcraiyyə Əsasnaməsində» və digər qanunvericilik aktlarında əks olunmuşdur. Odur ki, İran İslam Respublikasının Cinayət-Prosessual Məcəlləsinin vəkillik fəaliyyətinə dair hissədə yenidən işlənilməsini, vəkilin müxtəlif qanunvericilik aktlarında nəzərdə tutulan hüquq və vəzifələrinin Azərbaycan

Respublikasının Cinayət-Prosessual Məcəlləsində olduğu kimi, İran İslam Respublikasının Cinayət-Prosessual Məcəlləsinin də ayrıca maddəsində nəzərdə tutulmasını zəruri hesab edirik.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin müdafiəçiyə dair məsələləri tənzimləyən 92-ci maddəsi də qüsursuz deyildir. Maddənin mətnində (92.3 və 92.4-cü maddələrdə) bir qədər təkrarçılığa yol verilmiş, digər proses iştirakçılarına aid olan məsələlər (92.12 – 92.15 maddələrdə nəzərdə tutulan müddəalar) lüzumsuz olaraq mətnə daxil edilmişdir ki, bu da öz növbəsində maddənin mətnini zərurət olmadığı halda böyütmüş, ayrı-ayrı müddəaları çətin başa düşülən etmişdir. Odur ki, göstərilən maddənin mətnin yenidən işlənilməsini (aşağıdakı bəndlərdə göstərilən təklifləri nəzərə almaqla) məqsədəuyğun hesab edirik.

Aparılmış elmi-tədqiqat işinin yekun **nəticəsi** olaraq müdafiəçinin prosessual statusunu müəyyən edən qanunvericilik normalarının təkmilləşdirilməsi, mövcud ziddiyyət və boşluqların aradan qaldırılması məqsədilə Azərbaycan Respublikasının və İran İslam Respublikasının müvafiq qanunvericilik aktlarına aşağıdakı əlavə və dəyişikliklərin edilməsini təklif edirik:

1. Təqsirləndirilən şəxsin həbsə alınması və ya həbsdə saxlanmasının qanuni və əsaslı olduğunu təsdiq etmək üçün cinayət prosesini həyata keçirən orqanın məhkəməyə təqdim etdiyi sənədlərlə tanış olmaq hüququnu müəyyən edən norma Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 92.9.10-cu maddəsindən xaric edilərək 92.9.1-ci maddəsinə daxil edilsin və yekun olaraq həmin maddələr aşağıdakı məzmunda verilsin:

«***92.9.1. şübhənin və ya ittihamın mahiyyətini bilmək, müdafiə etdiyi şəxsin tutulması, həbsə alınması və ya həbsdə saxlanmasının qanuni və əsaslı olduğunu təsdiq etmək üçün cinayət prosesini həyata keçirən orqanın məhkəməyə təqdim etdiyi materiallarla tanış olmaq***»;

«***92.9.10. cinayət prosesini həyata keçirən orqanın ekspertizanın təyin edilməsi haqqında qərarı və ona dair ekspertin rəyi ilə tanış olmaq***»;

2. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 92.9.11-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

«***92.9.11. ibtidai araşdırma başa çatdırıldığı və ya cinayət işi üzrə icraata xitam verildiyi andan işin materialları ilə tanış olmaq, zəruri hesab etdiyi sənədlərin surətlərini çıxarmaq, lazım bildiyi halda belə sənədlərin təsdiq edilmiş surətlərini müvafiq vəzifəli şəxsdən (orqandan) tələb etmək və almaq***»;

3. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 92.10.3-cü maddəsi aşağıdakı yeni redaksiyada verilsin: «***Vəkil öz üzərinə götürdüyü müdafiədən özbaşına olaraq imtina edə bilməz. Lakin müdafiənin həyata keçirilməsini fiziki baxımdan istisna edən müstəsna hallarda (xəstəlik, xəstəliklə bağlı yaxınlara qulluq etmək zərurəti, cinayət işinin ərazi aidiyyətinin dəyişməsi və s.) buna yol verilə bilər***».

Analoji norma «Vəkillər və vəkillik fəaliyyəti haqqında» Azərbaycan Respublikası qanununa da əlavə edilsin.

4. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 92-ci maddəsinə 92.10.3-cü maddədən sonra aşağıdakı məzmunda yeni maddə əlavə edilsin: «***Təqsirləndirilən (şübhəli) şəxslə müdafiəçi arasında irəli sürülmüş ittihama (şübhəyə) və sonrakı müdafiə mövqeyinə olan münasibətlə bağlı dəfolunmaz ziddiyyət yarandıqda müdafiəçi müdafiəni davam etdirməkdən imtina edə bilər. Müdafiəçi belə imtinanın səbəbini təqsirləndirilən (şübhəli) şəxsdən başqa heç kimə bildirməməli, vəkil sirri kimi qorumalıdır.***

***Qeyd: 92.10.3-cü və bu maddədə nəzərdə tutulan müdafiədən imtina və yeni vəkilin seçilməsi, yaxud təyin edilməsi elə aparılmalıdır ki, bu təqsirləndirilən (şübhəli) şəxsin müdafiə hüququnun pozulmasına, yaxud məhkəmə iclasının yenidən təşkil olunmasına səbəb olmasın».***

5. İran İslam Respublikası Cinayət-Prosessual Məcəlləsinin 128-ci maddəsi aşağıdakı yeni redaksiyada verilsin:

«***Hər bir şəxs cinayət təqibi ilə bağlı ilkin dindirilməsi anından başlayaraq müstəqil olaraq seçdiyi, yaxud təyin olunmuş vəkilin (vəkillərin) yardımından istifadə etməklə öz müdafiəsini həyata keçirə bilər. Vəkil müdafiə etdiyi şəxsin iştirakı ilə keçirilən bütün istintaq hərəkətlərinin gedişində iştirak etmək, bu zaman müttəhimin hüquqlarını ona izah etmək, prosessual hərəkəti aparan vəzifəli şəxsin diqqətini yol verilmiş qanun pozuntularına cəlb etmək, etirazlar etmək və vəsatətlər vermək, həmin etiraz və vəsatətlərin müvafiq protokolda əks olunmasını tələb etmək, vəzifəli şəxsin hərəkətlərindən qanunla nəzərdə tutulmuş qaydada müvafiq vəzifəli şəxsə, yaxud orqana şikayət vermək hüququna malikdir. Vəkilin belə fəaliyyəti heç bir halda məhdudlaşdırıla bilməz***».

6. İran İslam Respublikası Cinayət-Prosessual Məcəlləsinə aşağıdakı məzmunda (Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsində bir qədər fərqli olaraq nəzərdə tutulmuş) yeni maddələr əlavə edilsin:

**6.1.** «***Vəkil ibtidai araşdırmanın gedişində və ya məhkəmə icraatı zamanı sübut kimi istifadə oluna biləcək dəlillər və materiallar toplamaq və***

***onları cinayət prosesini həyata keçirən orqana təqdim etmək hüququna malikdir»*.

**6.2.** «***Vəkil müdafiə etdiyi şəxslə təklikdə görüşmək və konfidensial ünsiyyət saxlamaq hüququna malikdir. Belə söhbətlərin sayı və müddəti məhdudlaşdırıla bilməz».***

**6.3.** «***İbtidai araşdırma başa çatdırıldığı və ya cinayət işi üzrə icraata xitam verildiyi andan vəkil işin bütün materialları ilə tanış olmaq, zəruri hesab etdiyi sənədlərin surətlərini çıxarmaq, lazım bildiyi halda belə sənədlərin təsdiq edilmiş surətlərini müvafiq vəzifəli şəxsdən (orqandan) tələb etmək və almaq hüququna malikdir.***

**6.4.** ***Müdafiə etdiyi şəxsin razılığı olmadan hər hansı şəxsin şahid və ya ekspert qismində cinayət prosesinə cəlb olunması, şübhəli və ya təqsirləndirilən şəxsin***

***hadisə ilə əlaqəsi, cinayət törətməkdə təqsiri olduğunu, zərər çəkmiş şəxslə barışdığını elan etmək, mülki iddianı tanımaq, müdafiə etdiyi şəxsin şikayətdən və ya ittiham hökmündən verdiyi şikayətdən imtina etmək vəkilə qadağan olunur.***

***Vəkil eyni hüquqları işin məhkəmə baxışı zamanı və bundan sonra da həyata keçirə, cinayət işinin bütün materialları ilə, yaxud sonradan əlavə olunmuş sənədlərlə tanış ola, zəruri hesab etdiyi sənədlərin surətlərini çıxara, lazım bildiyi halda belə sənədlərin təsdiq edilmiş surətlərini müvafiq vəzifəli şəxsdən (orqandan) tələb edə və ala bilər»***.

7. Təqsirləndirilən (şübhəli) şəxsin müdafiəçiyə etibar etdiyi sirrin qorunmasının təminatı olaraq vəkil sirrini təşkil edən məlumatların cinayət işi üzrə sübut kimi istifadə olunmasını qadağan edən norma hər iki ölkənin cinayət-prosessual qanununa əlavə edilsin.

8. Cinayət prosesi iştirakçılarının şəxsiyyəti haqqında məlumatların (soyadı, adı, atasının adı, vəzifəsi) müdafiəçinin xahişi ilə ona təqdim olunmasını nəzərdə tutan norma hər iki ölkənin cinayət-prosessual qanununa əlavə edilsin.

9. Vəkilin məhkəmədən kənar işlər üzrə hüquqi yardım göstərilmək hüququnu müəyyən edən norma «Vəkillik haqqında» İran İslam Respublikası qanununa əlavə edilsin.

**Dissertasiyanın işinin əsas müddəaları dərc olunmuş aşağıda göstərilən elmi məqalələrdə əks olunmuşdur.**

1. Müdafiəçinin Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulan hüquq və vəzifələri // «Hərbi xidmət və

cinayətkarlıqla mübarizə problemləri» mövzusunda ümumrespublika elmi-praktik konfransın materialları, Bakı, 2010, s. 196-206.

2. Azərbaycan, Rusiya və İran qanunvericiliyində təqsirləndirilən şəxsin müdafiə hüququnun təmin edilməsi məsələləri // «Hüquq elminin və təhsilinin müasir problemləri və həlli yolları» adlı beynəlxalq konfransın materialları, Bakı, 2011, s. 334-337.

3. Cinayət-mühakimə icraatında müdafiəçinin prosessual statusu məsələləri // Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri, 2011, № 55, s. 257-263.

4. Vəkil etikasının anlayışı və sosial əhəmiyyəti // Nəqliyyat hüququ, 2011, № 4, s. 216-224.

5. Vəkilin digər proses iştirakçıları ilə qarşılıqlı münasibətlərinin etik əsasları // AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Elmi əsərləri, 2011, № 2 (17), s. 390-397.

6. История формирования и развития адвокатуры в Азербайджане // Современное право, 2011, № 9, с. 143-146.

7. İranda vəkilliyin yaranması və inkişafı tarixi // Vəkilin digər proses iştirakçıları ilə qarşılıqlı münasibətlərinin etik əsasları // AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Elmi əsərləri, 2012, № 1 (18).

**Ширпур Вели Аббас оглу**

# Процессуальный статус защитника в уголовном судопроизводстве: на основании сравнительного анализа законодательства Азербайджанской Республики и Исламской Республики Иран

## Р Е З Ю М Е

Диссертация посвящена проблемам определения процессуального статуса защитника в уголовном судопроизводстве и структурно состоит из введения, трех глав, заключения, списка использованной литературы и приложений.

Во введении обосновывается актуальность научно-исследовательской работы, определяются цели и задачи, методологические основы и научные новшества диссертационной темы, перечисляются положения, выносимые на защиту.

В первой главе (***Адвокатура и право на защиту в Азербайджане и Иране***) рассматриваются история и этапы развития возникновения адвокатуры в Азербайджане и Иране, разъясняется сущность и понятие права на защиту.

Во второй главе (***Процессуальный статус и правовые основы деятельности защитника***) анализируются законодательные основы приобретения статуса адвоката, как по законодательству Азербайджанской Республики, так и по законодательству Исламской Республики Иран. Проводится сравнительный анализ прав и обязанностей, определяющих правовое положение защитника в уголовном судопроизводстве по законодательству указанных стран, определяются имеющиеся противоречия, недостатки, упущения обосновываются необходимость их устранения в целях усовершенствования соответствующих законодательных норм обоих стран.

В третьей главе (***Этические основы деятельности защитника***) анализируются этические нормы, регламентирующие деятельность защитника в уголовном судопроизводстве, в том числе его взаимодействия с другими участниками судопроизводства.

В заключительной части диссертации, как итог проведенного научного исследования в обобщенной форме перечисляются научные выводы, обосновывающие необходимость усовершенствования норм уголовно-процессуального законодательства Азербайджанской

Республики и Исламской Республики Иран, регламентирующих деятельность защитника в уголовном судопроизводстве и выдвигаются конкретные предложения по устранению существующих проблем.

**Shirpoor Vali Abbas**

**Procedural status of counsel in criminal proceedings: based on comparative analysis of legislation Republic of Azerbaijan and the Islamic Republic of Iran**

## SUMMARY

The thesis is devoted to problems of determining the procedural status of counsel in criminal proceedings and structurally consists of an introduction, three chapters, conclusion, bibliography and appendices.

In the introduction the importance of research, identifies goals and objectives, methodological principles and scientific innovations of the thesis topic, lists of which are taken for protection.

In the first chapter (The bar and the right to protection in Azerbaijan and Iran) are considered the history and development stages of the legal profession in Azerbaijan and Iran, explained the nature and concept of the right of defense.

The second chapter (Procedure and legal basis of the status of the defender) analyzed the legislative framework of becoming a lawyer, both in legislation of the Azerbaijan Republic and under the laws of the Islamic Republic of Iran. A comparative analysis of the rights and responsibilities, defining the legal status of counsel in criminal proceedings under the laws of these countries are determined by the contradictions, gaps, omissions justified the need to address them in order to improve the relevant legislation of both countries.

In the third chapter (The ethical foundations of a lawyer) examines ethical rules governing the activities of defense counsel in criminal proceedings, including its interactions and with the other participants of legal proceedings.

In the final part of the thesis, as a result of research carried out in summary form lists the scientific findings that justify the need to improve the rules of criminal procedure legislation of the Azerbaijan Republic and Islamic Republic of Iran, regulating the activities of defense counsel in criminal proceedings and put forward concrete proposals to address existing problems.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФИЛОСОФИИ И ПРАВА**

*На правах рукописи*

**Ширпур Вали Аббас оглу**

# ПРОЦЕССУАЛЬНЫЙ СТАТУС ЗАЩИТНИКА В УГОЛОВНОМ СУДОПРОИЗВОДСТВЕ: НА ОСНОВАНИИ СРАВНИТЕЛЬНОГО АНАЛИЗА ЗАКОНОДАТЕЛЬСТВА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ И ИСЛАМСКОЙ РЕСПУБЛИКИ ИРАН

**Специальность: 5612.01 - Уголовный процесс, криминалистика и судебная экспертиза; оперативно-розыскная деятельность**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени доктора философии по праву**

**Баку - 2015**